**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazma hüququnda*

**AYGÜN ALLAHŞÜKÜR QIZI KAMANDARİ-MƏMMƏDOVA**

# ABŞ-DA AZƏRBAYCAN DİASPORUNUN LOBBİÇİLİK FƏALİYYƏTİ

**İxtisas: 5503.02-Vətən tarixi**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI - 2017**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan diasporu" şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:** **M.H.SEYİDBEYLİ**
tarix üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Ə.Q.QASIMOV**
tarix üzrə elmlər doktoru

**F.Y.Quliyev**
tarix üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** Bakı Dövlət Universiteti "Azərbaycan tarixi" kafedrası (Humanitar fakültələr üzrə)

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502. 01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507. 01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixçünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "__"________2017-cı il tarixli iclasında, saat __ 00-da keçiriləcəkdir.

**Ünvan**: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23

Dissertasiya işi ilə AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq mümkündür.

Avtoreferat "___"__________2017-ci il tarixdə göndərilmişdir.

**D.01.161 Dissertasiya Şurasının**
**Elmi katibi, tarix üzrə fəlsəfə doktoru** **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan milli tarixşünaslığının tədrisinə böyük ehtiyac olan ən mühüm elmi məsələlərdən biri, tarixin müxtəlif dövürlərində, xüsusilə də XX əsrdə baş vermiş qlobal hərbi-siyasi proseslər nəticəsində öz vətənlərindən məhrum olmuş, onu tərk etmiş və ya müxtəlif səbəblərdən xarici ölkələrdə məskunlaşmış azərbaycanlıların diaspor şəklində təşkilatlanmaları, onların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında iştirakı və o cümlədən Azərbaycan dövlətinin mənafelərini təmin edə bilən lobbiçilik fəaliyyətləridir.

Müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli lider Heydər Əliyev bu məsələyə xüsusi diqqət yetirir, xarici ölkələrə səfərləri zamanı bu ölkədə yaşayan soydaşlarımızla görüşürdü. Keçirilən görüşlər zamanı "Azərbaycançılıq" ideologiyasını ön plana çəkən Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bu problemin tədqiqi xüsusilə aktual məsələyə çevrilərək, daim dövlət tərəfindən diqqət mərkəzində saxlanılmışdır. Hələ 1969-1982-ci illərdə hakimiyyətdə olarkən xaricdəki soydaşlarımızla əlaqələrin inkişafına, onların təşkilatlanmasına xüsusi diqqət yetirən Ümummilli lider müstəqil respublikaya rəhbərlik etdiyi ilk gündən «Azərbaycançılıq» ideyasının əsasını qoydu. Ümummilli lider çalışırdı ki, harada yaşamasından asılı olmayaraq, bütün dünya azərbaycanlıları vahid ideologiya ətrafında birləşsinlər. O, soydaşlarımıza tarixi Vətənlə əlaqələrinin sıx qurulmasına dair öz dəyərli tövsiyələrini əsirgəmirdi. Heydər Əliyev deyirdi: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və Azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq»[1]. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının ilk illərində azərbaycanlıların obyektiv və subyektiv səbəblərdən xarici ölkələrə miqrasiyası bu sahənin elmi tədqiqi üçün böyük imkanlar açdı. Ümummilli lider, harada yaşamasından asılı olmayaraq, bütün dünya azərbaycanlıları vahid ideologiya ətrafında birləşmələrini ən mühüm vəzifə olduğunu qeyd edərək deyirdi: «Azərbaycan Respublikası bütün Dünya Azərbaycanlıları üçün istinad və cazibə mərkəzi, onların ümid və məhəbbətlə üz tutduqları müqəddəs

[1] Azərbaycan Diasporu: böyük yolun başlanğıcı // Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi. Bakı: Çaşoğlu, 2006, s.38

məkandır. Buna görə də bütün azərbaycanlılar müstəqil dövlətimizin ətrafında daha sıx birləşməli, onun azad, firavan, daha da güclü və qüdrətli olması üçün əllərindən gələni etməlidirlər»[1].

Müasir milli tarixşünaslığımızda mühüm siyasi və elmi əhəmiyyət kəsb edən, tədqiqi vacib olan problemlərdən biri dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporunun və lobbisinin yaranması, formalaşması o cümlədən fəaliyyətinin araşdırılmasıdır. Məlum olduğu kimi, həm də Azərbaycan Respublikasının xarici siyasi uğurları bilavasitə Azərbaycan diasporunun və lobbisinin fəaliyyətindən, Azərbaycan diasporunun və lobbisinin fəaliyyəti isə öz növbəsində Azərbaycan Respublikasının iqtisadi və siyasi vəziyyətindən asılıdır. Bu baxımdan dünyanın siyasi və iqtisadi cəhətdən inkişaf etmiş, böyük gücə malik Amerika Birləşmiş Ştatlarında Azərbaycan diasporunun lobbiçilik fəaliyyətinin tədqiqi xüsusi aktuallıq kəsb edir.

XX əsrin 90-cı illərində beynəlxalq aləmdə baş verən sosial-siyasi dəyişikliklər SSRİ-nin və onun ideoloji təsiri altında olan sosializm sisteminin iflasına səbəb oldu. Sovet İttifaqının tərkibinə daxil olan milli respublikalar, o cümlədən Azərbaycan suveren dövlətə çevrildi. Baş vermiş hadisələr bu respublikaların ictimai həyatına təsirsiz qalmadı. Elmin müxtəlif sahələrində yeni-yeni mövzuların tədqiqat obyektlərinə çevrilməsinə səbəb oldu. Xarici ölkələrə, o cümlədən ABŞ-a əhalinin miqrasiyası, əlaqələrin genişlənməsi, müasir dünya siyasətində «diaspor» və «lobbi» təşkilatlarının rolunun artması bu anlayışları gündəmə gətirdi.

Lobbiçilik siyasətinin formalaşması Azərbaycan Respublikasının milli inkişaf strategiyası ilə sıx bağlıdır ki, bu da Ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdı. Azərbaycan dövlətinin milli maraqlarının həyata keçirilməsində diaspor və lobbi quruculuğuna xüsusi yer ayrılmış, bu problemə konseptual yanaşmanın vacibliyi nəzərə çatdırılmışdır. Bu da tədqiqatın aktuallığını bir daha təsdiq edir.

Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən diaspor siyasəti Heydər Əliyevin milli birlik və həmrəylik prinsipinə söykənir. Ümummilli liderin Dünya Azərbaycanlılarının birinci, İlham Əliyevin isə ikinci və üçüncü qurultaylarındakı çıxışlarından irəli gələn konseptual yanaşma Azərbaycan dövlətinin diaspor sahəsində lobbizm siyasətinin əsasını təşkil edir. Ölkə Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının II

[1] Əliyev Heydər Əlirza oğlunun müdrik kəlamları. Bakı: «Rabitə dünyası» qəzeti, 08 may, 2008-ci il, s.5

qurultayında (mart, 2006) demişdir: «Biz hər istiqamətdə çox sürətlə, düşünülmüş proqram və konsepsiya əsasında irəliləyirik. Bu işdə Azərbaycan diasporunun böyük rolu var. Mən istəyirəm ki, Azərbaycanın dünyada təbliğ edilməsində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılmasında, azərbaycanlıların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakında bu rol daha da güclü olsun. Bu, bizim mövqelərimizi möhkəmləndirir. ... Biz 50 milyonuq. Bu, dünya miqyasında böyük xalqdır. Çalışmalıyıq ki, doğma Vətənimizi möhkəmləndirək, zənginləşdirək, qüdrətli dövlətə çevirək»[1].

Uzun illər olduğu kimi, ABŞ XXI əsrin əvvəllərində də miqrasiya üçün ən perspektivli ölkələrdən biri olaraq qalmaqdadır. ABŞ-ın güclü hakimiyyətə malik dövlət olması, beynəlxalq siyasi-iqtisadi proseslərə təsiri inkaredilməz faktor kimi bu dövlətdə məskunlaşan diasporların öz tarixi vətənlərinin siyasi və iqtisadi mənafelərinin müdafiəsi və mənafelər uğrunda aktiv lobbiçilik fəaliyyəti aparmasına geniş imkanlar verir. Bu imkanların aşkara çıxarılması da tədqiqatın vacib obyektlərindən biri sayılır.

Müasir qloballaşan dünyaya inteqrasiya edən sivil dövlətin xarici və daxili siyasət kursunda bir sıra strateji məqamlarla yanaşı miqrasiya proseslərinin beynəlxalq hüquq normalarına uyğun idarə olunması və demoqrafik vəziyyətin daim nəzarətdə saxlanılması vacib şərtdir. Bu baxımdan tədqiq edilən problem dövrlə səsləşir.

Azərbaycan Respublikasının dünyanın qabaqcıl ölkələri ilə, ilk növbədə, ABŞ-la əlaqələri genişlənməkdədir. Azərbaycan dövlətinin xarici siyasətinin daha perspektivli istiqamətdə strukturlaşdırılması, beynəlxalq siyasi arenada mühüm nüfuza malik olması, onun ABŞ-la münasibətlərinin uğurlu alınması bu ölkədə yaşayan soydaşlarımızın «diaspor» və «lobbi» kontekstində fəaliyyəti ilə birbaşa əlaqədardır. Belə ki, ABŞ-da diaspor və eləcə də lobbiçilik institutu yüksək səviyyədə fəaliyyət göstərir ki, onu biz yunan, erməni, yəhudi, çin, italyan lobbilərinin siyasətində hər an önəmli və bir o qədər də, həlledici mövqeyə malik olduğunu aydın hiss edirik. Azərbaycan diasporunun lobbi kimi formalaşmasında məhz onların təcrübəsindən istifadə mühüm rol oynayır. Bu baxımdan ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyətinin tədqiqi Azərbaycan tarixşünaslığı üçün aktualdır və çağdaş dövrlə səsləşir.

---

[1] Əliyev İ. Dünya Azərbaycanlılarının II qurultayında nitq. Bakı: «Azərbaycan» qəzeti, 2006, 17 mart, №58, s.1

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də odur ki, ABŞ kimi dünyanın super dövlətində Azərbaycan həqiqətlərinin, xüsusilə də Dağlıq Qarabağ probleminin dünyaya çatdırılması daha yüksək səviyyədə təşkil edilə bilər. Son illərdə ABŞ-da bu işin diasporamızın fəal üzvləri tərəfindən səmərəli aparılması fərəhləndirici hal hesab edilməlidir. Dissertasiya işində bu kimi önəmli məsələlərin araşdırılması, birmənalı formada mövzunun aktuallığını daha da ön plana çəkir.

Dissertasiyada ABŞ-dakı diasporunun lobbiçilik fəaliyyətinin formalaşması milli kontekstdə tədqiq edilmişdir. Ümumilikdə Amerika ictimaiyyətində lobbi anlamına, onun tarixinə ümumi nöqteyi-nəzərdən baxılması, Birləşmiş Ştatlarda Azərbaycan diaspor təşkilatlarının formalaşması və onun lobbiçilik strukturu, Azərbaycan Respublikasının dövlət suverenliyi bərpa edildikdən sonra buradakı mövcud diaspor və lobbinin potensial qurum kimi fəaliyyət perspektivlərini, təşkilatlanmasını, inkişaf mərhələlərini, eyni zamanda müasir dövrümüzdə bu kimi məsələləri tədqiq etmək hər iki dövlət arasındakı lobbiçilik əlaqələrinin siyasi tərəflərindən irəli gələn xüsusi önəm daşıyan faktor hesab edilir. İlk növbədə isə diasporun beynəlxalq münasibətlərə təsiri, Respublikamızın xarici siyasətində «diaspor» və «lobbi» amilinə, Azərbaycan lobbisinin Amerika Birləşmiş Ştatlarının siyasi dairələri ilə əməkdaşlığına və diaspordan lobbiçiliyə doğru təkamül prosesi nəticəsində ABŞ-dakı müvafiq diaspor təşkilatlarımızın lobbiçilik fəaliyyəti, dövlətimizin dünyada təbliği və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı haqlı mövqeyinin ABŞ ictimaiyyətinə çatdırılması istiqamətində lobbiçilik fəaliyyətinin araşdırılması zərurəti də dissertasiya mövzusunun aktuallığına bir sübut kimi təqdim edilə bilər.

1990-cı illərin II yarısından etibarən geniş ümummilli hərəkata çevrilmiş diaspor quruculuğunu və onun lobbiçilik fəaliyyətinin «Azərbaycançılıq» məfkurəsində öz ideoloji əsaslarını tapması məsələsi də dissertasiya işində diqqət mərkəzində saxlanılmışdır. Tədqiqatın aktuallığını əsaslandıran mühüm amillərdən biri də «diaspor», «lobbi» anlayışının yalnız dövlət siyasətinin deyil, həm də milli ideologiyanın, ictimai şüurun, ABŞ-da mövcud lobbiçilik fəaliyyət strategiyasının prioritet istiqamətlərindən birinə çevrilməsi məsələsinin araşdırılmasıdır. 50 milyondan artıq Azərbaycan xalqının təqribən 10 milyondan çoxu öz tarixi vətənlərindən kənarda o cümlədən, ABŞ-da məskunlaşmışdılar[1]. Məhz bu baxımdan da, mövzunun tədqiqi çox mühüm əhəmiyyət kəsb

[1] Stephane de Tapia. «Migrations et diasporas torques» Paris 2005, p. 402

edir.

Tədqiqatın aktuallığını şərtləndirən məsələlərdən biri də qloballaşma prosesində ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyətinin milli dəyərlərimizi qorumaq işində nə dərəcədə iştirak etdiyini, ABŞ-ın dövlət siyasətinə təsirini, xüsusilə Dağlıq Qarabağ məsələsi ilə bağlı münaqişənin həlli üçün göstərdiyi səyi araşdırmaqdan ibarətdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqatın xronoloji çərçivəsi əsasən XX əsrin əvvəllərindən XXI əsrin əvvəllərinə qədər olan dövrü əhatə edir. Dissertasiyanın xronoloji çərçivəsi problemin tədqiqi ilə əlaqədar qarşıya qoyulan məsələlərə müvafiq müəyyənləşdirilmişdir. İstisna hal kimi yalnız I fəslin I yarımfəslində (XX əsrin I yarısında azərbaycanlıların ABŞ-a mühacirəti) Azərbaycan diasporunun formalaşması və təkmilləşməsi tarixi ilə əlaqəli mərhələlərin bölgüsündə daha əvvəlki xronoloji çərçivəyə istinad edilmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** «Diaspor», «lobbi» anlayışı Azərbaycan Respublikasında SSRİ dağıldıqdan sonra tədqiqatçıların diqqətini daha çox cəlb etməyə başlamışdır.

1930-1937-ci illərdə kütləvi təqiblərin qurbanlarına çevrilən Azərbaycan xalqının nümayəndələri əvvəl İrana, Türkiyəyə, oradan isə Avropaya, eləcə də Cənubi və Şimali Amerika ölkələrinə mühacirət etməli olmuşdular[1]. Müasir Azərbaycan milli tarixşünaslığında İkinci Dünya müharibəsi ərəfəsində və həmin illərdə mühacir olmuş, eləcə də əsir düşmüş azərbaycanlılarla bağlı məsələlərin araşdırılması öz əksini tapmışdır.

Azərbaycan milli tarixşünaslığında «diaspor» və «lobbi» mövzusunun tədqiqi digər mövzularla müqayisədə nisbətən yenidir. Belə ki, bu mövzunun geniş şəkildə işlənməsi Azərbaycan Respublikasının müstəqillik dövrünə təsadüf edir. Son 20 ildən artıq bir zamanda bu sahədə xeyli irəliləyişlər əldə olunmuşdur. «Azərbaycan diasporu və lobbiçilik» mövzusu Arzumanlı V., Həbiboğlu V., Seyidbəyli M., Həsənov Ə., Tahirli A., Paşayev H., Paşayeva Q., Əliyev Z., İsmaylov İ., Məmmədov R.[2] və bir çox digər alimlərimizin monoqrafiyalarının

---

[2] Əliyev Z. Dünya diasporaları. Bakı: Qismət, 2005, s.349

[1]Arzumanlı V. Azərbaycan Diasporu: reallıqlar, qayğılar, problemlər. Bakı: Qartal, 2001, 800 s// Həbiboğlu V. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı: Qartal, 2001, 356 s.// Сеидбейли М. Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития 1988-2007 гг. Баку: 2009, 396 с// Həsənov Ə. «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti». Bakı: «Azərbaycan» nəşriyyatı, 2005, 752 s.// Tahirli A.

tədqiqat obyektinin əsasını təşkil etmişdir.

- Təqdim olunan dissertasiyanın yazılmasında sadaladığımız müəlliflərin əsərlərinə müraciət edilmiş və istinadlar gətirilmişdir. Tarixçi-alim Əli Həsənovun «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti» kitabı dəyərli əsərlərdən biridir və mövzu ilə əlaqədar ondan ümumi məlumat almaq olar. Əsərdə Azərbaycanın xarici siyasətinin əsas prioritet istiqamətlərindən birini də terrorizmə qarşı mübarizənin təşkil etdiyi vurğulanır. Bu istiqamətdə beynəlxalq proseslərə qatılmaq, o cümlədən ABŞ-ın təşkil etdiyi anti-terror koalisiyasında iştirak etməklə bağlı siyasi təhlillər də kitabda öz yerini almışdır[1].

- Bu sahədə V. Arzumanlının tədqiqatları xüsusilə maraqlıdır. Ölkəmizdə diaspor probleminin demək olar ki, ilk tədqiqatçılarından hesab olunan Vaqif Arzumanlının «Azərbaycan Diasporu: reallıqlar, qayğılar, problemlər» adlı kitabını qeyd etmək lazımdır. Kitabda ABŞ-da fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri, həmçinin Dünya Azərbaycanlılarının Konqresi haqqında da ətraflı məlumat verilir[2].

- Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında ilk səfiri olmuş Hafiz Paşayevin "Bir səfirin manifesti" memuarı ABŞ-dakı lobbiçilik fəaliyyətimizin öyrənilməsində ən dəyərli mənbələrdən biridir. Burada 1992-ci ildə təsdiq edilmiş "Azadlığı müdafiə Aktı" adalandırılan qanunvericilik sənədinə əlavə edilmiş "907-ci" bölmə Azərbaycan xalqının qürur və mənliyinə toxunmuş, ədalət prinsiplərini pozmuş bir sənəd kimi qiymətləndirilir. Əsərdə həmçinin lobbizmin formalaşması, onun bir çox maraq quruplarını özündə birləşdirərək geniş siyasətin bir hissəsinə çevrilə bilməsi və "lobbi" məfhumunun köklərinin hətta Amerika demokratiyasının yarandığı illərə təssadüf edildiyi də tam izahlı

---

Azərbaycan mühacirəti: tarixi, mətbuatı, mədəniyyəti. Bakı: Tural, 2001, 344 s.// Paşayev H.M. Bir səfirin manifesti. Bakı: Şərq-Qərb, 2007, 248 s. // Paşayeva Q.Ə. Azərbaycan dövlətinin xarici siyasətində diaspor problemi. Siyasi elm. üzr. fəlsəfə dok. Dissertasiya işi. Bakı: 2009, 160 s.// Əliyev Z. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı: Yurd, 2007, 376 s.// İsmayılov İ. Dünya azərbaycanlıları XX əsrdə (müxtəsər oçerk). Bakı: Azərbaycan. DHA mətbəəsi, 1997, 270 s.// Məmmədov R. Azərbaycan diasporu və milli mətbuat. Bakı: Qartal, 2004, 168 s.

[1] Həsənov Ə. «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti». Bakı: «Azərbaycan» nəşriyyatı, 2005, s.235

[2] Arzumanlı V. Azərbaycan Diasporu: reallıqlar, qayğılar, problemlər. Bakı: Qartal, 2001, s.800 .

şəkildə qeyd olunmuşdur[1].

- Müasir dövrdə Azərbaycan milli tarix elmində «Diaspor» mövzusunun ən tanınmış mütəxəssislərindən sayılan Məryəm Seyidbəylinin bu sahədə analitik baxışının bəhrəsi olan tədqiqatlarından dissertasiya işi yazılarkən geniş istifadə edilmişdir. Rus dilində çap olunmuş «Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития 1988-2007 гг.»[2] adlı kitabında diaspor problemində mövcud olan bir çox gizli məqamlara aydınlıq gətirən M.Seyidbəyli yalnız Rusiyada fəaliyyət göstərən Azərbaycan diasporu haqqında deyil, bununla yanaşı həm də, «diaspor» anlayışının meydana gəlməsi, keçdiyi tarixi yol, diaspora üzrə dünya elmində hazırda daha aktual və tələbatlı sayıla biləcək elmi nəzəriyyələrin də ətraflı şərhini vermişdir. Müəllif əsərində həmçinin Azərbaycan diasporunun formalaşma tarixini mərhələli şəkildə, analitik təhlil metodu vasitələrlə konkretləşdirilmiş izahını dəqiqliklə təqdim edir. Sırf mövzu ilə əlaqədar xarici ədəbiyyatlara istinad edən tarixçi alim Məryəm Seyidbəylinin bu işi diaspora fəaliyyətini tam dolğun dərk etməkdə qiymətli mənbələrdən biri sayılır. Elə dissertasiya işinin yazılmasında tədqiqatçının ən çox bəhrələndiyi mənbələrdən hesab edilir.

- Tədqiqatçı Qənirə Paşayevanın «Azərbaycan dövlətinin xarici siyasətində diaspor problemi»[3] adlı dissertasiya işində Azərbaycan Respublikasının xarici siyasətində bu problemə necə yanaşması məsələsi üzərində ətraflı dayanılmışdır. Müəllif xaricdəki Azərbaycan diasporuna dövlətimizin qayğısından xüsusi bəhs etmişdir. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında onların fəaliyyətinin dövlət tərəfindən istiqamətləndirilməsi sahəsində görülən tədbirləri də nəzərdən qaçırmamışdı. Lakin o, bütün bu məsələlərdən ümumi danışmış, onu ayrıca bir dövlətə aid etməmişdir. Bu işdə məhz bizim qarşıya qoyduğumuz problem konkret tədqiqini tapmamışdır.

- Azərbaycan tarixşünaslığında diaspor və lobbiçilik problemini geniş şəkildə tədqiq edən müəlliflərdən biri də Z.Əliyevdir. Onun «Diaspor izahlı sözlük və məlumat kitabı», «Beynəlxalq münasibətlərdə diasporun rolu», «Dünya Diasporları» adlı kitabları da tədqiqata cəlb

---

[1] Paşayev H.M. Bir səfirin manifesti. Bakı: Şərq-Qərb, 2007, s.248

[2] Сеидбейли М. Г. Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития 1988-2007 гг. Баку: Элм, 2009, с.396

[3] Paşayeva Q.Ə. Azərbaycan dövlətinin xarici siyasətində diaspor problemi. Siyasi elm. üzr. fəlsəfə dok. Dissertasiya işi. Bakı: 2009, 160 s.

olunmuşdur[1]. Bu kitablarda diasporumuzun formalaşması tarixindən, lobbiçilikdən, lobbi strukturunun ABŞ-da xüsusi mərhələlər üzrə təşkili, xarici ölkələrdə, ən əsası isə ABŞ-da Azərbaycanın xarici siyasətində diasporun fəaliyyətindən, onun lobbiçilik xüsusiyyətlərindən, erməni lobbisinin antiazərbaycan fəaliyyətindən, Azərbaycan diasporunun yaranma tarixindən, ABŞ-da yaranan Azərbaycan təşkilatlarından bəhs olunur.

- Sərdərov M.Ə. özünün «Qloballaşma və miqrasiya siyasəti» adlı əsərində diaspora amilinin formalaşmasını miqrasiya prosesi ilə əlaqələndirir. O, göstərir ki, qloballaşan müasir dünyada immiqrasiya axınının hədsiz dərəcədə artdığı və kommunikativ imkanların genişləndiyi şəraitdə fəal surətdə çoxsaylı immiqrant və transmilli birliklər formalaşmağa başladı, hansılar ki, sonradan diaspora adlandırıldı[2].

- Dissertasiyanın tədqiqi zamanı Azərbaycan Respublikasının Xarici işlər Nazirliyinin arxiv sənədlərindən[3], Diasporlarla İş üzrə Dövlət Komitəsinin ABŞ-dakı Azərbaycan diasporu və lobbisi ilə əlaqədar qəbul etdiyi mühüm konseptual sənədlərdən, proqramlardan, həmçinin cari arxiv materialları, eyni zamanda illik hesabat materiallarından (Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin 2005, 2007-ci ilin yekunlarına dair hesabatlarından) istifadə edilmişdir[4]. Bundan başqa «Azərbaycan diaspor təşkilatları üçün sənədlər və məlumatlar toplusu»[5],

---

[1] Əliyev Z. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı: Yurd, 2007, s.376//Əliyev Z. Beynəlxalq münasibətlərdə Diasporun rolu. Bakı: Nurlan, 2001, s.150 //Əliyev Z. Dünya diasporaları. Bakı: Qismət, 2005, s.349.

[2] Sərdarov M. «Qloballaşma və miqrasiya siyasəti».Bakı: Təknur 2010, s.8

[3] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi. ABŞ-da Azərbaycan Respublikasının səfirliyi tərəfindən buraxılmış xəbərlər bülletenləri (1993-1998-ci illər). Sənədlərin sayı: 47; vərəqlərin sayı: s.122, v. 5-115.//Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi. ABŞ mətbuatında Azərbaycana dair dərc olunmuş materiallar (03.01.1994-24.09.1994). I hissə. Sənədlərin sayı: 83; vərəqlərin sayı: s. 201, v. 26-74.//Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi. ABŞ mətbuatında Azərbaycana dair dərc olunmuş materiallar (23.09.1994-30.12.1994). II hissə. Sənədlərin sayı: 130; vərəqlərin sayı: s. 241, v. 36-142.

[4] ARDİDK Cari Arxivi: Xarici ölkələrdə yaşayan Azərbaycanlılarla iş üzrə dövlət Komitəsinin 2005-ci ilin yekunlarına dair hesabatı. Bakı: Yurd, 2005, 92 s.//ARDİDK Cari Arxivi: Xarici ölkələrdə yaşayan Azərbaycanlılarla iş üzrə dövlət Komitəsinin 2007-ci ilin yekunlarına dair hesabatı. Bakı: Yurd, 2007, s.23

[5] Azərbaycanın xarici siyasəti [Mətn]:sənədlər məcmuəsi 2008/ Azərbaycan

«Dünya Azərbaycanlılarının I Qurultayı»[1], «Dünya Azərbaycanlılarının II Qurultayı»[2], «Dünya Azərbaycanlılarının III Qurultayı» - «Qurultaya hesabat»[3], habelə dövri mətbuatda nəşr olunmuş bu kimi qiymətli materiallara da tədqiqat zamanı istinad edilmişdir. Eyni zamanda Diasporlarla İş üzrə Dövlət komitəsinin yaradılmasının 2012-ci ildə onuncu ildönümü ilə əlaqədar dərc edilmiş «Azərbaycan diasporu» (Ensiklopedik məlumatlar toplusu)[4] adlı kitabı diaspor və lobbizm mövzusu ilə bağlı geniş, ətraflı məlumat əldə etmək istəyən hər bir kəsin və ən başlıcası, bu sahə üzrə araşdırma aparan tədqiqatçıların böyük marağına səbəb ola biləcək dəyərli mənbələrdən biri kimi qiymətləndirilir.

Keçmiş Sovet və müasir Rusiya tarixşünaslığında miqrasiya prosesi, diaspor və lobbiçilik fəaliyyətinin beynəlxalq əlaqələrin təkmilləşdirilməsi inkişafının prioritet istiqamətləri üzrə A.Suşinskiy, Z.Levin, Y.Platonov, T.Poloskava, N.Şuliqa, T.İlarinova, V.Tişkov, N.Lebedeva, U.Safran, A.Vişneviski, V.Dyatlov[5] və digər müəlliflərin əsərlərində geniş öz

---

Respublikası Xarici İşlər Nazirliyi; red.kol. sədri E.Məmmədyarov,- Bakı:«GARİSMA»MMC,2009 I hissə - 655, [1] s., [8] v fotoşəkil;25 sm-nüsxə500.

[1] Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı: «Azərbaycan» nəşriyyatı, 2002, s.19

[2] Dünya Azərbaycanlılarının II Qurultayı. Bakı: «Çaşıoğlu», 2006, s.191

[3] Dünya azərbaycanlılarının III Qurultayı /Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi. Bakı: Adventa, 2011, s.240

[4] Azərbaycan Diasporu Ensiklopedik məlumatlar toplusu. Bakı: «SƏS-2012» MMC, 2012, s.654

[5] Сушинский С.А. «Лоббирование от «А» до «Я» « [Текст] // С.А. Сушинский; Ростов-на Дану: Феникс, 2015., 269 [2]с.// Левин З. Менталитет диаспоры. Москва: ИММА-ПРЕС, 2002, 250 с.// Платонов Ю.П. «Этнический фактор. Геополитика психология». – Санкт-Петербург: Речь 2002., 520 с.//Полоскова Т.В. Диаспоры в систем международный связей. Автореферат доктора политических наук. Москва, 1998 с.// Шульга Н. Формирование политики национального государства по отношению к диаспоре. Москва: Наука, 2002, 176 с.// Иларинова Т. Этническая группа: генезис и проблемы самоидентификации (теория диаспоры). Москва: Наука, 1994, 251 с.// Тишков В.А. Исторический феномен диаспоры// Этнографическое обозрение. 2000, №2, с. 2-13.// Лебедева Н. Социальная психология этнических миграций. Москва: УММА РЕС, 1997, с.190 // Сафран У. Сравнительный анализ диаспор. Размышления о книге Рабина Коэна «Мировые диаспоры»., Диаспоры, 2004, №4, 141 с. // Вишневский А. Распад СССР: этнические миграции и проблема диаспор// «Общественные

əksini tapmışdır. Bu əsərlərdə diasporların siyasi, etno-mədəni, fəlsəfi inkişafının ayrı-ayrı aspektləri işlənilmişdir. Diaspor tədqiqatçılarından olan Y.Platonov bu anlayışın hansı mənada işlədilməsi üzərində geniş dayanmışdır. Tədqiqatçı alim əhalinin miqrasiya problemini, diasporun yaranması və inkişafını, xüsusilə XXI əsrdə aktuallığını əsaslandırmışdır. Diaspor deyəndə müəllif – etnos, hansı ki, öz tarixi vətənində yaşamayan, eləcə də tarixi qrup xarakteristikasının itirilməsinə yol vermək istəməyən, həmçinin məskunlaşdığı ölkənin əhalisindən xeyli seçilən və o cümlədən, həmin dövlətin mövcud qaydalarına riayət etmək (dərk edərək və ya dərk etməyərək) məcburiyyətində qalmış etnik qrup anlamını nəzərdə tutur[1]. O belə qənaətə gəlir ki, diaspora iri miqyaslı, dinamik bir varlıqdır. Bu tədqiqatçılar bilavasitə ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti ilə bağlı məsələlərə toxunmamalarına rəğmən, onların əsərləri tədqiq etdiyimiz elmi işin müəyyən bölmələrinin araşdırılmasında xüsusi əhəmiyyət kəsb etdiyindən bu mənbələrdən də ümumi şəkildə istifadə olunmuşdur.

Rusiya tədqiqatçısı S.A.Suşinski lobbiləşmənin dörd əsas mərhələsini işləyib hazırlamışdır ki, həmin mərhələlər lobbi strukturunun əsasını və eləcə də ictimai lobbiləşmənin önəmli bazasını təşkil edir. 1. Qərəzsiz elmi-tədqiqat işləri aşkar etmək; 2. Media nümayəndələri ilə bilavasitə ünsiyyətdə olmaq; 3. İctimai təşkilatlarla qarşılıqlı əlaqədə olmaqla onların ideologiyalarının əsas dayağına çevrilmək; 4. Yüksək vəzifəli şəxslərin çıxmış olduğu hakim dairələrlə əlaqədə olmaqla ümumi maraqların mövcudluğundan xəbər verməsidir[2].

Diaspor anlayışı Qərb ölkələri tarixşünaslığında da yetərincə araşdırılmışdır. XX əsrin 90-cı illərindən başlayaraq Avropa ölkələrində və eləcə də ABŞ-da diaspor və lobbi quruculuğunun formalaşma tarixi, onun müxtəlif aspektləri, siyasi məzmunun ümumi və xüsusi predmetlərini özündə tərənnüm edən bir sıra elmi əsərlər işıq üzü görmüşdür. Bu baxımdan ABŞ-dakı diasporumuzun lobbiçilik fəaliyyətinin araşdırılması və bu fəaliyyətin mühüm məqamlarına dəqiqliklə şərh verilməsi üçün xarici ədəbiyyatlara da tədqiqatçı tərəfindən istinad

---

науки и современность». 2000, №3, с.115-130.// Дятлов В. Диаспора: попытка определится в понятиях // Диаспоры. Москва: 1999, №1, с.15-25

[1] Платонов Ю.П. «Этнический фактор. Геополитика психология». – Санкт-Петербург: Речь 2002., с.406

[2] Сушинский С.А. «Лоббирование от «А» до «Я» « [Текст] // С.А. Сушинский; Ростов-на Дану: Феникс, 2015., с.32-33

edilmişdir. Son zamanlarda ABŞ-da bir sıra fundamental kollektiv monoqrafiyalarda, müəyyən spesifik sferalara aid dəyərli dərgilərdə çap edilən məqalələrdə, eyni zamanda saytlarda diaspor və lobbimizin prioritet istiqamətləri, onların xarici siyasət konsepsiyasında perspektivli mövqe və mahiyyəti, eləcə də bu aspektdə bir çox zəruri məsələlər öz əksini tapmışdır. Bu əsərlərin müəlliflərindən Andrews. Mc.Colin, C.Robin, G.Sheffer, W.Safran, Martin P., Vidgren J., Lavie S., Swedney T., Thomas Straubhaar, Schiran K.L.[1] və digərlərini qeyd etmək olar.

Məsələn, G.Şeffer diasporanın etnik qrupların könüllü və ya məcburi miqrasiya proseslərinin əsasında formalaşdığını göstərirdi. O, mühacirlərin mühacirətdə olduğu ölkələrdə milli azlıq statusunda yaşadığını, etnik və etno-dini mənsubiyyətlərini, adətlərini, eləcə də icma daxili birliklərini xarici təsirlərdən daima mühafizə etməyə çalışdıqlarını bildirirdi[2].

P.Martin və J.Vidgren diasporun formalaşmasında və yaranmasında iki əsas amilin: – birincisi, istənilən hər hansı bir xalqın təmsilçilərinin öz ölkəsinin etnik torpaqlarından kənara, xaricə mühacirət etməsi və ikincisi, artıq onun xaricdə qalan hissəsinin təbii-bioloji yolla artıb çoxalması mühacirət anlayışının bu terminə oxşar olduğunu qeyd edirlər[3].

Kay Lehman Schiran məhz İkinci Dünya müharibəsindən sonra bir sıra ölkələrə, o cümlədən ABŞ-a mühacirət edənlərin bir çoxunun burada mərkəzləşmiş diaspor cəmiyyətlərində birləşərək öz doğma ölkələrinin mənafeləri üçün bütün vasitələrdən istifadə etdiklərini xüsusilə vurğulayırdı[4].

---

[1]Andrews Mc. Fordland. Common cause-lobbying in the public interest. New-York 1996.// Robin C. Diasporas and the nation-state. From victims to challenge ~ International Affairs, 1992, №3, p.539-540.// Sheffer G. Ethno-national diasporas and security ~ Survival, 1994, №1, p. 60-69.// Safran W. Diasporas in modern societies. Myths of homeland and return ~ Diaspora, 1991, №1, p.83-84.// Martin P., Widgren J. International Migration: Facing the Challenge. Population Bulletin. Vol. 57, 2001.// Lavie S., Swedney T. Displacement diasporas and geographies of identity. London: Durham, 1996, p.296 // Thomas Straubhaar. International Mobility of Highly Skilled. Brain Gain, Brain Drain or Brain Exchange. Hamburg, 2000, p.291// Schiran K.L. Organized interest and American democracy. New-York: Publishing Press, 1999, p.299

[2] Sheffer G. Ethno-national diasporas and security // Survival, 1994, №1, p.60-69.

[3] Martin P., Widgren J. International Migration: Facing the Challenge. Population Bulletin. Vol. 57, 2001

[4] Schiran K.L. Organized interest and American democracy. New-York:

Beynəlxalq müstəvi üzrə dövlətlərarası münasibətlərdə S.Lavie və T.Swedney diaspor və lobbi quruculuğunda yerdəyişmə amilinin mühüm əhəmiyyət kəsb edən rolunu, ümumilikdə eləcə də paralel formada mənimsənilməsini ön plana çəkmişlər[1].

Hazırda Türkiyə tarixşünaslığında da diaspor və lobbi quruculuğu probleminin tədqiqinə geniş yer verilir. Məhz bu sahələrə aid mühüm əsərlər ərsəyə gətirilir. Bu baxımdan, M.Ker Dincer «Lobbiçilik» kitabında bildirmişdir ki, erməni lobbisinin Amerika hakim dairələrinə təsir və təzyiq metodları ilə öz dövlətlərinin mənafeyi naminə yararlanmaları inkar edilməzdir[2]. Müəllif həmçinin, ABŞ-da diasporların lobbiçilik fəaliyyətinin yerli siyasi proseslərdə fəal iştirakını və lobbizm təcrübəsinin əsas faktor kimi vacibliyinin məqsədəuyğunluğunu xüsusi qeyd edir.

Nisa Bayramoğlunun «ABD-də lobbi fəaliyyətləri» adlı əsəri də bu səpgidə yazılmış dəyərli mənbələrdən biri sayılır[3]. Bu kitab 1985-ci ildə Türkiyə institutu tərəfindən çap edilmişdir. Müəllif burada lobbizmin formalaşma səbəbləri, fəaliyyət prinsipi, struktur və məqsədlərindən geniş bəhs etmiş, ABŞ-ın hakim dairələrində lobbiçiliyin onların siyasi gündəminin ayrılmaz bir hissəsinə çevrildiyini göstərmişdir. Əsərdə həmçinin erməni və yunan lobbisi ilə əlaqədar ətraflı məlumatlar da təqdim edilmişdir.

Digər türk tədqiqatçısı A.Tayyar «Amerikada siyasi quruluş, lobbilər və xarici siyasət» kitabında xarici siyasət kursunun inkişafında lobbiçilik fəaliyyət strategiyasına xüsusi önəm vermiş, lobbizmin formalaşmasında məhz diasporanın mühüm etnik faktor olduğunu bildirmişdir[4].

**Tədqiqatın mənbə bazası.** Təqdim olunan dissertasiya işinin tədqiqi prosesində çoxlu sayda dövlət sənədlərindən, Ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin bu məsələ ilə bağlı imzaladıqları sərəncamlardan, etdikləri çıxış və nitqlərindən də dəyərli bir mənbə kimi istifadə edilmişdir. Bundan başqa, tədqiqatçı dissertasiya işinin hazırlanmasında Azərbaycan

---

Publishing Press, 1999, p.299

[1] Lavie S., Swedney T. Displacement diasporas and geographies of identity. London: Durham, 1996, 296 pp.

[2] Ker Dincer M. Lobbiçilik. İzmir-1998, s.207

[3]Bayramoğlu N.N. ABD-de lobbi faaliyyetleri. Ankara: 1985, s.78

[4] Tayyar A. Amerikanın siyasi yapısı: Lobiler ve Diş politika. İstanbul: Alfa Yay., 2000, İSBN 9758052683.

Respublikası Xarici İşlər Nazirliyinin Arxivindən, Prezident kitabxanasının materiallarından və internet resurslarından, statistik külliyyatlardan, dövrü mətbuat materiallarından faydalanmışdır. Amerikanın müxtəlif ştat və şəhərlərində fəaliyyət göstərən diaspor təşkilatlarının, ictimai birliklərin və s. rəsmi saytları da tədqiqata cəlb edilmişdir.

Dissertasiya işlənərkən tədqiqatçı bu problemlə bağlı ABŞ-da Azərbaycan Respublikasının rəsmi səfirliyi tərəfindən buraxılmış xəbər bülletenləri, Birləşmiş Ştatların mətbuatında Azərbaycana dair dərc olunmuş materiallar, Amerika Birləşmiş Ştatlarının prezidentlərinin nitq və çıxışlarından, «Həmrəylik xartiyası»ndan, bu sahəyə dair yazılmış qabaqcıl dövlət xadimləri və politoloqlarının əsərlərindən də bəhrələnmişdir. Ən əsası ABŞ-da fəaliyyət göstərən Azərbaycan diasporu və onun lobbiçilik strukturlarının illik hesabatlarına xüsusi önəm verilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsəd və vəzifələri dissertasiyanın quruluşunu və mühüm istiqamətlərini müəyyənləşdirir. Bütövlükdə dissertasiya işinin yazılmasında əsas məqsəd ABŞ-da yaşayan azərbaycanlıların təşkil etdiyi diasporun lobbiçilik xüsusiyyətlərini tədqiq etmək və onun Azərbaycanın xarici siyasətindəki rolunu göstərməkdir. Dissertasiya işi yazılarkən göstərilən məqsəd çərçivəsində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur.

- Şimali və Cənubi Azərbaycandan ABŞ-a mühacir axınını mərhələlərlə işıqlandırmaq;
- Azərbaycanlıların Amerika Birləşmiş Ştatlarına miqrasiya etmələrinin əsas səbəblərini aşkara çıxarmaq;
- Azərbaycan diasporunun təşkilatlanma prosesinin inkişafını ardıcıllıqla izləmək;
- ABŞ-dakı Azərbaycan diasporunun fəal nümayəndələrinin lobbiçiliyin inkişaf prosesinə olan marağını kompleks şəkildə araşdırmaq;
- ABŞ-da Azərbaycan lobbizmi və onun strukturunun tədqiq olunması;
- ABŞ-Azərbaycan Respublikası münasibətlərində lobbiçiliyin rolunun qiymətləndirilməsi və onun dünyada məlum olan digər lobbiçilik fəaliyyətləri ilə müqayisəli təhlili;
- Amerika Birləşmiş Ştatlarında Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti strategiyasını konkret təcrübə əsasında araşdırmaq.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiya işinin tədqiqi zamanı bir sıra elmi-nəzəri metodlardan istifadə edilməsi məqsədi qarşıya

qoyulmuşdur. İlk növbədə dissertasiyanın metodoloji əsasını tədqiqata cəlb olunmuş tarixi faktların obyektiv təhlili və konkret nəticələrin əldə olunması təşkil edir. Dissertasiya yazılarkən tarixilik, obyektivlik, müqayisəli təhlil, elmi yanaşma prinsipləri əsas tutulmuş, induktiv və deduktiv metodlardan istifadə edilmişdir. Eyni zamanda konseptuallıq, mənbə və tədqiqat materiallarına tənqidi yanaşma metodları da problem işlənərkən əsas götürülmüşdür.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan diasporu mövzusu bu sahədə fəaliyyət göstərən bir sıra mütəxəssislər tərəfindən işlənməsinə baxmayaraq, lakin yenə də mütəmadi olaraq bu mövzunun tədqiqinə ehtiyac duyulur. Təqdim olunan dissertasiya işinin elmi yeniliyi onunla müəyyən edilir ki, vətən tarixşünaslığında ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti kompleks şəkildə tarixi səpgidə ilk dəfə tədqiq edilmişdir. Tədqiqatın yeniliyini şərtləndirən müddəalar aşağıdakılardır:

- Azərbaycanlıların Amerika Birləşmiş Ştatlarına mühacirəti və onun mərhələləri tarixi ardıcıllıqla işıqlandırılmış və təhlil edilmişdir;
- ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti ayrıca tədqiqat obyekti kimi araşdırılmışdır;
- ABŞ-ın dünyanın lider dövləti olduğundan burada lobbizmin inkişafına xüsusi önəm verilməsinin vacibliyi aşkara çıxarılmışdır;
- Azərbaycan həqiqətlərinin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin səbəblərinin ABŞ ictimaiyyətinə çatdırılmasında bu ölkədəki dasporamızın lobbiçilik fəaliyyətinin mühüm rol oynadığı müəyyənləşdirilmişdir;
- ABŞ-Azərbaycan Respublikası münasibətlərinin müsbət məcrada inkişafında diasporamızın lobbiçilik fəaliyyətinin əhəmiyyəti nəzərə çatdırılmışdır;
- Dissertasiya işində sübuta yetirilmişdir ki, diasporumuz və onun lobbiçilik xüsusiyyətləri xalq diplomatiyası rolunu oynamaqdadır;
- ABŞ-da fəaliyyət göstərən Azərbaycan diaspor və lobbisinin müxtəlif şəhərlərdəki çoxsaylı təşkilatlarının gələcəkdə daha səmərəli lobbiçilik fəaliyyəti ilə bağlı real təkliflər və tövsiyələr verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində çox sayda elmi faktların Azərbaycan milli tarixşünaslığına gətirilməsi və ilk dəfə elmi dövriyyəyə cəlb edilməsi praktik əhəmiyyətə malikdir. Bu materiallardan monoqrafiya, dərslik və dərs vəsaitləri yazılarkən istifadə edilə bilər. Həmçinin bakalavr və magistr pilələrində, seçmə kursların hazırlanması zamanı da bu materiallardan yararlanmaq olar. Tədqiqat işi

ABŞ-dakı diasporamızın lobbiçilik fəaliyyəti ilə maraqlanan hər bir şəxs üçün faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycan diasporu» şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işinin əsas məzmunu və nəticələri tədqiqatçının Azərbaycanda və ölkədən kənarda nəşr olunan məqalələrində, həmçinin elmi-nəzəri, elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 3 fəsil, 7 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin mənbəşünaslıq bazası, öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, mənbə və nəzəri-metodoloji bazasının icmalı ətraflı göstərilmişdir. Girişdə bununla yanaşı, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiya və onun qurluşu geniş şəkildə öz əksini tapmışdır.

Tədqiqat işi "XX **əsrdə və XXI əsrin əvvəllərində azərbaycanlıların ABŞ-a mühacirəti**" adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. **"XX əsrin I yarısında azərbaycanlıların ABŞ-a mühacirəti"** adlanan birinci yarımfəsildə XX əsrin 20-ci illərindən başlayaraq Azərbaycan diasporunun təşəkkülü və təkmilləşməsi tarixi, eyni zamanda onun hansı mərhələlərə bölündüyü, miqrasiya prosesləri, onların meydana gəlmə səbəbləri ətraflı təhlil edilmişdir. Göstərilmişdir ki, ABŞ-da Azərbaycan diasporunun formalaşması və onun lobbiçilik xüsusiyyətinin əsas fəaliyyət məqamları XX əsrin əvvəllərindən başlasa da, yalnız 80-ci illərin axırlarından etibarən güclü vüsət almağa başlamışdır. Təqdim olunan işdə azərbaycanlıların ABŞ-a mühacirəti şərti olaraq dörd mərhələyə bölünmüş və XX əsrin I yarısından İkinci Dünya müharibəsinə qədərki dövrdə baş verən miqrasiya prosesinin xüsusən siyasi xarakterli əhəmiyyət daşıması qeyd edilmişdir.

Dissertasiyanın ikinci yarımfəsli **"İkinci Dünya müharibəsindən sonra azərbaycanlıların ABŞ-a mühacirəti (1940-cı illərin ikinci yarısından 1980-ci illərə qədər olan dövr)"** adlanır. İkinci Dünya müharibəsi və müharibədən sonrakı dövr Azərbaycan diasporunun tarixində yeni bir mərhələnin başlanması ilə əlamətdar idi. Əsir düşmüş Sovet ordusu əsgərlərinə «satqın», «əks-kəşfiyyatçı» və s. damğaların

vurulması, Sovet rejiminin amansız və qəddar cəza tədbirləri, qanlı təqiblər onların bir çoxunu geri qayıtmaqdan çəkindirmişdi. Əsir düşən bir çox azərbaycanlı əsgərlər legionerlərə qoşulmuşdular. Belə ki, onların bir qismi bu dövrdə, həm də Amerika Birləşmiş Ştatlarına mühacirət etmiş və burada məskunlaşması barədə faktlar birbaşa öz əksini tapmışdır.

XX əsrin 40-cı illərinin ikinci yarısından etibarən ABŞ SSRİ-yə qarşı «soyuq» müharibəyə başlamışdı. Bu işdə Amerikada yaşayan mühacir və legionerlərin gücündən də istifadə edirdi. Azərbaycan mühacirləri əsasən Nyu-Yorkun 40-kilometrliyində Nevada şəhərində məskunlaşmışdılar. Burada yaşayan legionerlər Əhməd İbrahim, Hidayət İsrafil, Ənvər Soltan, Oğuz Öndər və digərlərinin təşəbbüsü ilə əvvəlcə «Azərbaycan İslam və Xariciyyə Cəmiyyəti» yaradıldı. Sonralar bu cəmiyyətin adı dəyişdirilərək «Amerikada Azərbaycan Kültür Cəmiyyəti» adlandırıldı[1].

İkinci Dünya müharibəsi dövründə və ondan sonrakı ilk illərdə ABŞ-a mühacirət edən soydaşlarımızın hal-hazırda nəvə, nəticələri orada yaşayır. Azərbaycanın dövlətçiliyinin (müstəqilliyinin) XX əsrin əvvəlləri və sonlarında baş verən bərpasında diasporumuzun və siyasi mühacirlərimizin böyük əməyi və xidmətləri olmuşdur[2]. Artıq bu dövrlərdə həmyerlilərimiz öz əcdadlarından fərqli olaraq Amerika Birləşmiş Ştatlarının tam hüquqlu vətəndaşları kimi onlara aid olan bütün hüquq və imtiyazlardan istifadə etməyə başlamışlar.

Yarımfəslin sonunda belə nəticəyə gəlmək olur ki, əslində Vətənini müdafiə etmək üçün ordu sıralarına getmiş soydaşlarımız taleyin hökmü ilə əsir düşmüş və «xalq düşməninə» çevrilmişdi. Bu səbəbdən Avropa və ABŞ-a mühacirət etmək məcburiyyətində qalmışlar. Azərbaycanın dövlət müstəqilliyini bərpa etmək yolunu seçən və bu sahədə çalışan mühacirlərin tarixi vətənlərinə dönmək arzuları ömürlərinin sonuna kimi reallaşmamışdır.

Dissertasiyanın üçüncü yarımfəslində **"XX əsrin 90-cı illəri və XXI əsrin ilk illərində azərbaycanlıların ABŞ-a mühacirəti**" məsələləri tədqiqatın əsas araşdırma obyekti olmuşdur. Cənubi Azərbaycandan olan həmvətənlilərimizin böyük əksəriyyəti ABŞ-da ticarət sahəsində çalışırlar və geniş investisiya imkanlarına malikdirlər. Onlar kifayət qədər güclü mövqeyə, iri kapitala malikdirlər. Qərbi Avropa ölkələrinin bir çoxunda

---

[1] Yaqublu N. Azərbaycan legionerləri. Bakı: Çıraq, 2002, s. 247-251

[2] İsmayıl Musa. Azərbaycanın xarici siyasəti (dövlətlərarası münasibətlər və Azərbaycan aprel 1920 – oktyabr 1991-ci illər) Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2010, s.280

olduğu kimi, Amerika Birləşmiş Ştatlarında da cənublular böyük nüfuz sahibidirlər[1]. Cənubi Azərbaycandan mühacirətin ən mühüm dalğası XX əsrin 50-60-cı illərini əhatə edir. Ağır siyasi-iqtisadi şəraitdə yaşayan əhalinin böyük əksəriyyəti bu dövrdə maddi rifahını yüksəltmək və azad, təminatlı yaşamaq üçün xarici ölkələrə, o cümlədən ABŞ-a üz tutmuşdular.

Demoqrafik göstəricilərə əsasən Azərbaycan diasporu böyük diaspor hesab oluna bilər. Belə ki, azərbaycanlıların hər beş nəfərindən biri mühacirətdə yaşayır. Şimali Azərbaycan, Cənubi Azərbaycan və Türkiyə Cümhuriyyətindən olan azərbaycanlı mühacirlərin hesabına hazırda diasporumuz üç qollu bir sistem kimi mövcuddur. Bu üç qol həmin sistemdə müəyyən mənada bərabər şəkildə və yanaşı mövcud olsalar da, onların keyfiyyət göstəriciləri, diaspor olaraq təsir etmək gücü, potensialı da həmin bu 3 elementin sözügedən sistemdəki xüsusi rolu, çəkisi və yeri də müəyyən dərəcədə fərqlidir[2]. Miqrasiya proseslərinə təkan verən amil kimi qloballaşmanı da qeyd etmək lazımdır. Qloballaşma xalqlar və dövlətlər arasında «məsafələri», «arakəsmələri» qısaldaraq, müasir diaspor və lobbi quruculuğunun inkişafında müstəsna rola malikdir. Həmçinin bu yarım fəslin ümumi məzmununu əhatə edən iki cədvəl işlənib hazırlanmışdır. Cədvəl 1 – Azərbaycanlıların ABŞ-a miqrasiyası[3] və cədvəl 2 – ABŞ vətəndaşlığına qəbul olunan azərbaycanlılar[4] adlanır.

Dissertasiyanın **“ABŞ-Azərbaycan Respublikası münasibətləri kontekstində lobbizmin fenomen struktur kimi formalaşmasının tədqiqi”** adlanan ikinci fəsli iki yarımfəslindən ibarətdir. Bu fəslin birinci yarımfəsilində **“Amerika Birləşmiş Ştatlarında Azərbaycan diasporunun təşkilatlanma prosesi və lobbiçiliyə doğru inkişafı”** nəzərdən keçirilmiş, ABŞ-da diaspor və lobbi sahəsində fəaliyyət göstərən bir çox təşkilatlarımızın adları, məqsəd və vəzifələri ətraflı təhlil edilmişdir. Göstərilir ki, azərbaycanlıların hüquqlarını qoruyan ilk təşkilat 1951-ci ilin, fevral ayının 8-də Birləşmiş Ştatlarda yaradılan Amerika

[1] Əliyev Z. «Türkdilli xalqların diasporaları». Bakı: Adiloğlu, 2009, s.65
[2] Əliyev Z. Beynəlxalq münasibətlərdə Diasporun rolu. Bakı: Nurlan, 2001, s.36
[3]Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı, 2005., s 868
[4]Amerika azərbaycanlıları Vikipediya, açıq ensiklopediya https://az.wikipedia.org/wiki// https://www.wikipedia.az // Amerikalı_azərbaycanlılar

Komitəsi olmuşdu[1]. Bu komitənin vasitəsilə soydaşlarımız öz haqq səslərini dünya ictimaiyyətinə çatdıra bilirdilər. Sonradan isə onun adı dəyişdirilərək Amerikada Rusiya Xalqlarının Qurtuluş Komitəsi kimi tanınmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli nümayəndələrindən sayılan Nağı bəy Şeyxzamanlının təşəbbüsü ilə ABŞ-da yaşayan soydaşlarımızın yaratdıqları ilk milli diaspor və lobbi icması Amerika Azərbaycanlıları Cəmiyyəti olmuşdur. Bu cəmiyyət ABŞ-ın Nyu-Cersi ştatında 1957-ci ildə qeydiyyatdan keçirilmiş və əsas hədəfi Amerikada Azərbaycan həqiqətlərini təbliğ etməkdir [2]. 1996-cı ildən isə onun nəvəsi Tomris Azəri cəmiyyətin sədri seçilmişdir. Bu sahədəki fəaliyyətinə görə 2006-cı ildə Tomris Azəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən «Şöhrət» ordeni ilə təltif olunmuşdur[3].

1997-ci ilin iyun ayının 27-29-u Dünya Azərbaycanlıları Konqresinin (DAK) Birləşmiş Ştatlarda keçirilən ilk toplantısı zamanı adından göründüyü kimi, ətrafında dünyanın müxtəlif bölgələrində məskunlaşan azərbaycanlıları birləşdirən bu qurumun yaradılması lobbimizin formalaşması istiqamətində mühüm tarixi addım hesab olunur. I Konqres dünya azərbaycanlılarının yaratdıqları təşkilatların vahid mərkəzdən idarə olunmasında əhəmiyyətli addım kimi qiymətləndirilə bilər. Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası (DAƏŞ) DAK-dan sonra diaspor təşkilatlarını ətrafında birləşdirən ikinci böyük qurum hesab oluna bilər. Bu qurum 2001-ci ilin 9-10 noyabr tarixində Bakı şəhərində keçirilən Dünya Azərbaycanlarının I Qurultayı zamanı yaradılmışdı[4]. Sonrakı illərdə 2006-cı ilin fevral ayının 8-də Bakıda Dünya azərbaycanlılarının II qurultayı[5] (həmin qurultay zamanı "Həmrəylik xartiyası"[6] təsdiq olunmuşdur), 2011-ci il iyul ayının 5-də Bakı şəhərində Dünya azərbaycanlılarının III qurultayı[7] və 2016-cı ilin

---

[1] Yaqublu N. Azərbaycan legionerləri. Bakı: Çıraq, 2002, s.234

[2] https://az.wikipedia.org/wiki/Amerika_Azərbaycanlıları_Cəmiyyəti

[3] «Diaspor hərəkatında aktiv olan qadınlar» (az). olaylar.az. 12.03.2014 16:33.http://olaylar.az/news/diaspora/73415

[4] Azərbaycan Diasporu: böyük yolun başlanğıcı // Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi. Bakı: Çaşoğlu, 2006, s.33

[5] Dünya Azərbaycanlılarının II qurultayından keçən dövr ərzində diaspor quruculuğu sahəsində görülmüş işlərlə bağlı məlumat. Bakı: AM965 MMC mətbəəsi, 2008, s. 98

[6] Dünya azərbaycanlılarının həmrəylik xartiyası. Bakı: Azərtac-İnformasiya Agentliyi, 2001, s.156

[7] Azərbaycan Diasporu Ensiklopedik məlumatlar toplusu. Bakı: «SƏS-2012»

iyun ayının 3-də Dünya Azərbaycanlılarının IV Qurultayı açıq elan edilmişdir [1]. 2007-ci il mart ayının 9-da Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunda dünyanın siyasi reallıqlarını nəzərə alaraq lobbi quruculuğunu müasir tələblər səviyyəsinə qaldırmaq baxımından mühüm əhəmiyyətə malik proqram sənədi oldu. Forum çərçivəsində lobbi qurumları arasında əlaqələri daha da genişləndirmək, onların Vətənə bağlılığını və təşkilatlanma prosesini artırmaq, xaricdə, o cümlədən, ABŞ-da yaşayan azərbaycanlılar arasında mənəvi-psixoloji, siyasi-ideoloji əlaqələri daha da möhkəmləndirmək istiqamətində konseptual qərarlar qəbul olunmuş, önəmli addımlar atılmışdır.

ABŞ-da yaşayan azərbaycanlı gənclər, lobbi qurumlarının fəal üzvləri də doğma vətən naminə səmərəli işlər görürlər. Belə ki, 2006-cı ilin oktyabrında Amerika-Azərbaycan Şurasının təşkilatçılığı ilə Kaliforniyanın Los-Anceles Universitetində ABŞ-da yaşayan gənclərin ilk forumu keçirilmişdir. Konfransda ABŞ-ın qanunverici orqanları və siyasi dairələri ilə əlaqələrin möhkəmləndirilməsi zəruriliyi qeyd olunmuşdur[2]. Əsas hədəf Amerika cəmiyyətinə Azərbaycan həqiqətlərini təbliğ edərək maarifləndirməkdən ibarətdir.

Birləşmiş Ştatlarda fəaliyyət göstərən Azərbaycan icmalarının sədrləri və lobbi fəalları ilə təşkil edilən çoxsaylı məsləhətləşmələr əsasında ABŞ Azərbaycanlıları Şəbəkəsi (US Azeris Network - USAN) 2007-ci ildə yaradılmışdır. Bu cəmiyyət -Azərbaycan diasporunun ABŞ-da 501(c)(4) nömrəli yüksək statusunu alan yeganə təşkilatdır. Bu isə o deməkdir ki, ABŞ hökuməti bizim təşkilata Azərbaycan diasporunun siyasi maraqlarını təbliğ və müdafiə etmək üçün (ingiliscə buna advocacy deyilir) rəsmi icazə vermişdir. ABŞ Azərbaycanlıları Şəbəkəsi ABŞ-ın bütün Azərbaycan, türk və digər diaspor və icma təşkilatlarını bir arada cəmləşdirir. 2009-cu ildə Cəmiyyətin icraçı direktoru Adil Bağırov, professor Hamlet İsaxanlı və doktor Con Vəfai ilə birlikdə «Qarabağ» Fondunun əsasını qoydular[3]. 2013-cü ildə isə ABŞ-ın Qarabağ Fondunun təsisçisi Adil Bağırov Ohayo ştatının Deyton şəhər Təhsil Şurasına üzv

---

MMC, 2012, s.318

[1] Dünya Azərbaycanlılarının IV Qurultayı: http://www.xebersaati.com/22533-bakida-dunya-azerbaycanlilarinin-iv-qurultayi-kecirilir.html]

[2] ABŞ-da ilk dəfə olaraq Azərbaycan diaspor nümayəndələri haqda qətnamə qəbul edilib http://www.legis.state.tx.us/tlodocs/82R/billtext/pdf/ HR00220F. pdf#navpanes=0

[3]Dünya azərbaycanlılarının III Qurultayı /Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi. Bakı: Adventa, 2011, s.113

seçilmiş və bu Şurada onun dörd yerdən birini tutduğu xüsusi vurğulanır. Bu haqda əsaslı məlumatlar ABŞ-da fəaliyyət göstərən Türk Koalisiyasının «On Min Türk Kampaniyası» tərəfindən yayılmışdır.

İkinci fəslin birinci yarımfəslində beş cədvəl işlənib hazırlanmışdır. Cədvəl 3; 4; 5 – ABŞ-da mövcud Azərbaycan diasporu və lobbi sahəsi üzrə fəallığı ilə seçilən təşkilat və fondların adları[1], cədvəl 6 – ABŞ-da mövcud Azərbaycan Kütləvi İnformasiya Vastələri (KİV)[2], cədvəl 7 – isə Xocalı soyqırımını tanıyan ABŞ-ın ştatları[3] adı altında tərtib olunmuşdur. Həmin cədvəllərin elmi işin məzmununa uyğun yerlərdə təqdim edilməsi dissertasiyanın daha anlaqlı və oxunaqlı dildə olmasını şərtləndirir.

**İkinci fəslin ikinci yarımfəslində "ABŞ-da Azərbaycan lobbisi və onun strukturu"** nəzərdən keçrilmiş və bu termin tam təhlil olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə süqutundan sonra, dünyanın bir çox ölkələrinə yayılan həmvətənlilərimizin siyasi məşğulluğunu lobbiçilik fəaliyyət növü kimi dəyərləndirmək mümkündür. Azərbaycanlı mühacirlər təşkilatlanma yolunda bir çox mühüm addımlar atmışdılar. Belə ki, 1952-ci ildə Ştarnberqdə və Münhendə Azərbaycan konfransı keçirildi. Bu konfransda Amerika Komitəsinə müraciətlər qəbul edildi[4]. ABŞ hökumətinin yardımı ilə Azadlıq radiostansiyaları fəaliyyətə başladı. «Azadlıq» radiosunun «Azərbaycan redaksiyası»na (1953-54-cü illər) mayor Ə.Fətəlibəyli Düdənginski başçılıq etdi. «Azərbaycan» redaksiyasında Məcid Müsazadə (Qaraslanlı), Fərman Məmmədov, Kərim Aslanoğlu, İsmayıl Əkbər, Əli Aranlı və digər legionerlər çalışırdı[5].

---

[1]Arzumanlı V., Hüseynov A. Azərbaycan ünvanlı... (xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri). Bakı: 1994, s.110 // Qasımlı M.S. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996, s.140 // Əliyev Z. Dünya diasporaları. Bakı: Qismət, 2005, s349 // https://www.wikipedia.az // Amerikalı_azərbaycanlılar

[2] Arzumanlı V., Hüseynov A. Azərbaycan ünvanlı... (xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri). Bakı: 1994, s.110 // Azərbaycan Diasporu Ensiklopedik məlumatlar toplusu. Bakı: «SƏS-2012» MMC, 2012, s.654 // http://az.wikipedia.org/wiki/Azəsrbaycan_ diasporu 31/07/10/

[3]Xocalı soyqırımının tanınması Vikipediya
https://az.wikipedia.org/wiki/Xocalı_soyqırımının_tanınması//
http://www.preslib.az/; http://elibrary.az/cgi/irbis64r/cgiirbis_64.exe// Faciəni qətliam kimi tanıyan ABŞ ştatları[https://az.wikipedia.org]

[4] Yaqublu N. Azərbaycan legionerləri. Bakı: Çıraq, 2002, s.240

[5] Yenə orada s.243

Onlardan Məcid Musazadə müharibədən sonrakı ömrünün bir qismini Almaniyada Münhendə, digər qismini isə ABŞ-da Nyu-Yorkda keçirmiş, «Amerikanın səsi»ndə işləməyə başlayan ilk azərbaycanlılardan olmuşdu.

Müasir demokratik cəmiyyətimizdə müxtəlif maraqları birləşdirən könüllü qruplar da mövcuddur. Həmin qrupların nümayəndələrinin çalışdıqları öz tələblərini və istəklərini dövlət orqanlarına çatdırmaqdır. Tədqiq edilən dövrdə bu qrupların fəal təmsilçiləri olan lobbistlərin bir qismi açıq, digərləri isə gizli formada fəaliyyət göstərməyə üstünlük verirdilər. ABŞ-da hakimiyyət strukturuna təsirdə lobbiləşmə daha geniş yayılmışdır. Lobbiləşmə dövlətin daxili və xarici siyasətinə təsir edən spesifik qurumdur. Belə ki, Konqresin və Ağ evin kuluarlarında məğlub olanlar, sözsüz ki, ABŞ-ın qanunvericilik sistemində də məğlubiyyətə uğrayanlardır. Lobbi qrup nümayəndələri də hər hansı bir qanun təsdiqi üçün parlamentin üzvləri ilə danışıqlar aparırlar. Bu da çox hallarda rüşvətlə müşayiət olunurdu. Müəyyən müddətdən sonra lobbizm daha sivil forma alır. 1946-cı ildə qəbul olunmuş qanuna əsasən lobbist qanuni qeydiyyatdan keçərək öz fəaliyyətini leqal formada həyata keçirə bilər.

ABŞ-ın dünyaca məşhur «Forbes» jurnalının proqnozuna görə lobbiçilik ixtisası 2011-2020-ci illərin top-onluq baş-ixtisaslarına daxil olacaqdır[1]. Hal-hazırda «Lobbizim» fakültəsi Azərbaycanın ali məktəblərində (universitetlərində) mövcud deyil. Lakin Bakı Dövlət Universitetində (BDU) «Politologiya» və bir neçə başqa ali məktəblərimizdə «Regionşünaslıq» fakültələri vardır. Bu ixtisaslar üzrə təhsil alan tələbələrə hakimiyyət orqanlarına təsir, onlarla əlaqələrin siyasi analizi peşəkar səviyyədə mənimsənilir. ABŞ-ın bir çox tanınmış, mötəbər universitetlərində də «Lobbizim», «Politologiya», eləcə də «hökumət orqanları ilə qarşılıqlı əlaqələr» (Government relations) fənləri tədris olunur.

Ümumiləşdirmə apararaq qeyd etmək olar ki, lobbiçilik dövlət və qanunvericilik orqanlarının qəbul etmiş olacağı qərarlara təsir etməyə yönəlmiş siyasi fəaliyyət növüdür. Onun əsas məqsədi qəbul edilən normativ aktlarda müəyyən qrupların maraqlarını əks etdirməkdir. Buraya vergi güzəştləri, sosial güzəştlər, dövlət dotasiyaları, beynəlxalq investisiyalar və digər imtiyazlar daxildir.

Dissertasiyanın "**ABŞ-Azərbaycan xarici siyasət konsepsiyasının inkişafında lobbizmin prioritet rolu**" adlanan üçüncü fəsli iki yarımfəsildən ibarətdir. Həmin fəslin birinci yarımfəslində "ABŞ-da

---

[1] http:www.forbes.ru /node/34702/slideshow/2

Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti strategiyası" Amerikada mövcud olan lobbimizin güclü təməlli bir struktur kimi təşkilatlanması, onun fəaliyyət strategiyasının möhkəm milli birliyə, ümumi ideoloji bütövlüyə əsaslanması və bunun təmin edilməsinin vacibliyi işıqlandırılır. Bu isə özlüyündə dövlət siyasətimizin ən əsas prinsipial amillərindən biridir. 1995-ci il oktyabrın 20-də BMT-nin yaranmasının 50 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etmək üçün ABŞ-a gələn Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türk Evində Azərbaycan icmasının nümayəndələri ilə görüşündə bildirmişdir ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi dünyanın istənilən ölkəsi ilə sərbəst əlaqələr qurur[1]. Görüşdə Yer kürəsinin dörd bir güşəsində yaşamasından asılı olmayaraq Azərbaycanın bütün həmvətənləri ilə maraqlandığını qeyd edən dövlət başçısı Azərbaycanda hər bir vətəndaşa eyni münasibət bəsləndiyini xüsusi vurğulamışdır.

Müasir dövrdə lobbizm təkmilləşərək, qlobal fenomen kimi siyasi fəaliyyət strategiyasına malik olmuşdur. Lobbizmin ABŞ-Azərbaycan xarici siyasət konsepsiyasının inkişafında, dövlətlərarası ümummilli maraqların genişləndirilməsində prioritet rolu danılmaz faktdır. Onun istənilən, xüsusən Birləşmiş Ştatların dövlət orqanları və ABŞ Konqresinin İdarə Heyətinin nümayəndələrinə hər hansı bir qərarın təsdiqinə təsir və təzyiq göstərən spesifik səlahiyyətli lobbi təmsilçiləri mövcuddur. ABŞ-da yaşayan azərbaycanlıların diaspor tarixi elə də uzun olmasa da, qısa zaman ərzində böyük bir formalaşma tarixi proses yolunu keçməyə müvəffəq olmuşdur. Diaspor quruculuğunun, lobbimizin və dünya azərbaycanlılarının həmrəylik prinsipinə əsaslanıb ölkəmizin ABŞ-da layiqli təmsil edilməsində lobbiçilik fəaliyyət strategiyasını ön plana çəkmələri bir-biri ilə üzvü surətdə bağlı olan, qırılmaz vəhdət təşkil edən əsas məsələlərdəndir. Dallasdakı «Beynəlxalq Siyasət Şurasının» üzvləri qarşısında demokratiya və xarici siyasət mövzusunda çıxış edən Birləşmiş Ştatların dövlət rəsmisi M.Urofski bildirmişdi: Əsl strategiya – demokratiyanı iqtisadi islahatlarla möhkəmləndirmək və beynəlxalq təhlükəsizliyi yeni səviyyəyə qaldırmaqdan ibarətdir; yalnız bu halda biz 1989-cu il inqilablarından 1990-cı illərin demokratiyalarına aparan çətin yolu uğurla keçə bilərdik[2].

ABŞ-da mövcud diasporamızın lobbiçilik fəaliyyəti strategiyasının ən

---

[1] Azərbaycan Diasporu Ensiklopedik məlumatlar toplusu. Bakı: «SƏS-2012» MMC, 2012, s.131

[2] ABŞ demokratiyası haqqında əsas mətnlər. Bakı: 2005, s.399

başlıca vəzifəsi Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Azərbaycanın haqlı mövqeyinin müdafiəsi və bu münaqişə ilə bağlı tədbirlərdə lobbi nümayəndələrimizin Birləşmiş Ştatların bir çox dövlət strukturlarında çıxış etməsidir. Amerika qanunvericiliyində bir çox dövlətlərin maraqlarını təmsil edən lobbi qrupları mövcuddur ki, onlar da Parlamentə təsir edə bilən maliyyələşdirilmiş böyük gücə malik qüvvələrdir. Onlar, əsasən, iqtisadi və siyasi problemlərin həllində müstəsna rol oynayırlar.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəslində **"ABŞ-Azərbaycan Respublikası əlaqələrində və Dağlıq Qarabağ həqiqətlərinin təbliğində lobbizmin prioritet istiqamətləri"** üzrə məsələlər tədqiq olunmuşdur. ABŞ-da Azərbaycan lobbisinin işinə təhlükə yarada biləcək güclü erməni lobbisinin mövcudluğu onların fəaliyyətində həmişə nəzərə alınmış və diqqət mərkəzində saxlanılmışdır. Ermənilər daima öz problemlərini qabardaraq Vaşinqtonda təsir qrupları yaratmağa nail olmuşlar. Hazırda ABŞ-da 18 erməni gündüz məktəbi, 30-dan artıq dövrü mətbuatı fəaliyyət göstərir. Bunlarla yanaşı 4 elmi tədqiat mərkəzi, 400-ə yaxın erməni təşkilatları, bir neçə kilsə və Sosial Demokrat "Hinçak" Partiyası, Erməni Demokratik Liberal Partiyası, Erməni İnqilab Partiyası və digər partiyalar mövcuddur və onlar ölkədəki ictimai siyasi vəziyyətə yetərincə təsir edə bilirlər.

Erməni lobbisinin ABŞ siyasətinə təsirinin ən bariz nümunəsi isə 1992-ci il oktyabrın 24-də «Azadlığa dəstək aktına» - «Freedom Support Act-S.2532; P.L102-511» 907-ci düzəlişin əlavə edilməsi idi[1]. ABŞ-ın dövlət xadimləri və eləcə də kütləvi informasiya təmsilçiləri təsadüfi deyil ki, bu qanun lahiyəsini «siyasi təbliğat və planlı formada təşkil edilən lobbiçilik fəaliyyəti» hesab edirlər. Belə ki, bu düzəlişin əlavə edilməsi Amerika hökumətinin Azərbaycan və Ermənistanla bağlı apardığı xarici siyasətində tətbiq edilən ikili standartların mövcudluğuna sübutdur.

ABŞ-da Azərbaycan diasporunun lobbiçilik mexanizmi 1996-cı ildən etibarən güclənərək geniş fəaliyyət dairəsi əldə etmiş oldu. Buna səbəb 1996-cı il noyabrın 25-də ABŞ-ın Senat və Nümayəndələr Palatasının "Çarlz Vilson düzəlişi" adlanan layihəni təsdiq etməsi oldu. Həmin ilin noyabr ayının 26-da isə ABŞ prezidenti layihəni imzaladı. Layihədə qeyd edilən şərtlərə əsasən Azərbaycana ABŞ birbaşa humanitar yardım göstərə bilərdi. «Azadlığın müdafiə aktı»na əlavə edilmiş 907-ci düzəlişə görə Demokrat Partiyasından olan Konqresmen Çarlz Vilson tərəfindən hazırlanan yeni qanun lahiyəsinə qədər Respublikamız Amerika Birləşmiş

[1]Əliyev İ. İnkişaf məqsədimizdir. IV kitab. Bakı: Azərnəşr, 2009, s.139

Ştatlarının yalnız özəl, qeyri-hökumət və xeyriyyəçilik təşkilatlarından humanitar yardımlar ala bilərdi. Bununla da, dövlətimizə Amerikanın qeyri-hökumət təşkilatları (*NGO*) və şəxsi təşkilatları (PVO) tərəfindən humanitar yardım təqdim edilirdi. Həmin şəxsi təşkilatlara(PVO) «Save the children Care», «Adventist Devolorment and Relief» (ADRA) və s. daxildir[1]. Eyni zamanda qeyri-hökumət təşkilatlarına sırf dövlət orqanları ilə əlaqə yaratmağa qadağa qoyulmuşdu. Bu düzəlişə əsasən isə «Azərbaycan hökumətinə yardım o halda göstərilə bilər ki, prezident müəyyən etsin ki, qeyri-hökumət təşkilatları vasitəsilə Azərbaycana göstərilən yardım qaçqınların və məcburi köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmir»[2]. Amerikanın ictimai-siyasi aləmində yüksək elit təbəqəyə məxsus dövlət xadimlərinin səlahiyyətlərindən lobbi fəallarımız müəyyən məqamlara uyğun lazımi səviyyədə yararlanmağa çalışırdılar. Hər-halda belə bir geniş təcrübəyə malik siyasi nümayəndələrin Azərbaycanpərəst mövqedən çıxış etmələri Birləşmiş Ştatlarda mövcud diasporumuzun daha mütəşəkkil lobbiçilik fəaliyyətinin təşkili hesab edilə bilər.

Lobbi quruculuğunun prioritet istiqamətlərinin uğurlu təşkilinin ən vacib şərtlərindən biri də müxtəlif ölkələrin, eləcə də Birləşmiş Ştatların parlament və hökumət üzvlərinin, eyni zamanda dövlət orqanlarının nümayəndələri ilə əməkdaşlıq əlaqələrinin qurulmasına nail olmaqdır. Bütün səyləri səfərbər edərək Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı diaspor təşkilatlarının lobbiçilik fəaliyyətinin səmərəsini artırmaq bir vəzifə kimi həmişə qarşıda durur. Bu işə ABŞ-da yaşayan azərbaycanlıların, xüsusilə dövlət strukturlarında fəaliyyət göstərən vətəndaşların və gənclərin cəlb olunması mütləq məsələ hesab edilməlidir.

**Dissertasiyanın nəticə hissəsində** müəllif dissertasiya işinin qarşısında duran vəzifələrin yerinə yetirilmə ardıcıllığını sistemli araşdırmış, faktlar əsasında analitik təhlilər və ümumiləşdirmələr apararaq müvafiq elmi-nəzəri nəticələr əldə etmişdir. ABŞ-dakı soydaşlarımızın vahid bir mərkəz ətrafında birləşməsi, onların dövlətimizin təbliğində aktiv iştirak etmələri, eləcə də diasporumuzun prespektivli lobbiçilik fəaliyyətinin aparılmasına dair müəllifin təqdim etdiyi əsas tövsiyələr bunlardan ibarətdir:

- Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi

---

[1] Əliyev Z. Beynəlxalq münasibətlərdə Diasporun rolu. Bakı: Nurlan, 2001, s.125
[2] Nəsirov E.X. Azərbaycan-ABŞ münasibətləri. Bakı: Qanun, 1998, s.46

Amerika və Azərbaycan xalqları arasında mədəni dialoqun yaradılması, ABŞ-dakı lobbiləşmiş diaspor təşkilatları ilə daha səmərəli əlaqələr formalaşdırmağa çalışmalı; ABŞ-da diasporumuzun lobbiçilik fəaliyyətinin genişləndirilməsi xarici siyasət strategiyamızla sıx əlaqədə kompleks halında inkişaf etdirilməsi; ABŞ-ın yerli hakimiyyət orqanları ilə Azərbaycan diaspor və lobbi icmaları arasında münasibətləri möhkəmləndirmək istiqamətində hazırlanacaq xüsusi proqramlar əsasında beynəlxalq simpozium və forumların təşkil edilməsi; dünya miqyasında bu sahə üzrə əldə edilmiş yeni təcrübədən dövlətimizin diaspor və lobbi siyasətində daim tətbiq edilməsi; ABŞ-dakı diaspor və lobbi nümayəndələrimizin Azərbaycan Respublikasının dövlət-hökumət komissiyalarına cəlb edilməsi mexanizmi və siyasi formaları yenidən işlənərək, daha da təkmilləşdirilməsi; ABŞ-da yaşayan həmvətənlilərimizin qarşılaşdığı problemlərin həlli prosesinə diqqətin artırılması.

- Azərbaycan diaspor və lobbi icmalarımızın ən önəmli vəzifəsi isə Dağlıq Qarabağ münaqişəsində ölkəmizin haqq səsinin Amerika ictimaiyyətinin diqqətinə çatdırılması üçün virtual aləmdə, sosial şəbəkələrdə bu həqiqətlərin tam, dolğun təsvir edən təbliğedici və məlumatlandırıcı xüsusi saytların işlənib hazırlanması; Amerika Birləşmiş Ştatlarında məskunlaşan azərbaycanlıların diaspor siyasi fəallığının artırılmasına nail olmaqla lobbi quruculuğunda qarşılıqlı faydalı əməkdaşlığın, təcrübə mübadiləsinin aparılması və lobbiçilik fəaliyyət strategiyasının inkişaf etdirilməsi məqsədilə bu sahə üzrə hazırlanmış xüsusi təkliflər əsasında lahiyələrin həyata keçirilməsi önəmli məsələdir.

Müasir dövrümüzdə xalqlar və dövlətlər arasındakı münasibətlər konkret ümummilli, eləcə də bəşəriyyətin inkişafına xidmət etdiyi üçün vahid tarixi prosesi ifadə edir. Azərbaycan qədim tarixi köklərə, zəngin mədəniyyətə sahib olan bir dövlət olmaqla yanaşı, multikultural və tolerant dəyərləri üstün tutan xalqların çoxəsirlik məskənidir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin dərc edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. ABŞ-da Azərbaycan diaspor təşkilatlarının yaranması və formalaşma tarixi. (məqalə) AMEA-nın tarix institutunun "Elmi əsərləri". Bakı, 2016, s. 389-394
2. ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti. Azərbaycan diasporu: tarix və müasirlik. Bakı: "Turxan" NBP, 2016, s. 172-180

3. ABŞ və Azərbaycanın xarici siyasətində diaspor-lobbiçilik münasibətləri (məqalə) Pedaqoji Universitet Xəbərləri. (Humanitar elmlər seriyası). Bakı, ADPU 2014, № 4, s. 164-167.
4. ABŞ-da mövcud Azərbaycan diasporunun əsas prioritet istiqamətlərindən biri: Xocalı soyqırımının tanıdılması. Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası). Bakı, № 4, BDU 2015, s. 183-189
5. ABŞ-da Azərbaycan lobbisinin formalaşması (beynəlxalq elmi konfrans materialları) Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar. Naxçıvan şəhəri, 5-6 iyun 2015, s. 318-320
6. Азербайджанская диаспора в США и круг ее деятельности. (beynəlxalq elmi konfrans materialları) "Азербайджанская диаспора в США // Международная научно-практическая конференция, посвященная памяти В.П.Дзагуровой. Сборник трудов. Выпуск XII, Махачкала 2014, с. 33-35
7. Лоббийская деятельность азербайджанской диаспоры в США. Кавказ и мир. Международный научный журнал. Грузия, Тиблиси № 20, 2015, s. 27-33.
8. Azərbaycan Respublikasının lobbiçilik strategiyası. Hərbi bilik (Hərbi elmi-nəzəri, publistik jurnal), № 6, Bakı, 2015, s. 104-110.
9. «Османская империя в первой мировой войне». İnternational new tendencies congress in ottoman researches (İNOCTE 2017). Doğu və Batı Türklərinin Ortaq tarixi Dövrləri və münasibətləri. Beynəlxalq konfrans. 12-14 sentyabr Bakı, 2017.

**Камандари-Маммедова А.А.**

## Лоббистская деятельность азербайджанской диаспоры в США
## РЕЗЮМЕ

Представленная к защите диссертационная работа посвящена к исследованию лоббистской деятельности азербайджанской диаспоры в США. В диссертации в хронологической и типологической последовательности исследованы процессы миграции азербайджанцев в США, на каждом историческом этапе максимально учтены социально-экономические, политические факторы, повлиявшие на формирование лоббизма как структурного феномена, определена приоритетная степень лоббизма во внешнеполитических азербайджано-американских отношений на современном этапе. Эти направления стали объектом исследования.

Первая глава диссертации называется «Эмиграция азербайджанцев в США в XX и в начале XX1 веков». Здесь впервые был создан целостный исторический цикл социально-экономических и культурных причин процесса миграции в целом и эмиграции азербайджанцев в США. На основе многочисленных архивных документов и научно-исследовательских работ исследован процесс возникновения и становления азербайджанской диаспоры в США в начале 20-х годов XX века.

Вторая глава диссертации называется «Исследование формирования лоббизма как структурного феномена в контексте отношений США и Азербайджана». Здесь приведены сведения о собраниях диаспорных структур и влияние форумов на их деятельность. Опираясь на сравнение было доказано, что одним из эффективных средств, оказывающих положительное влияние на лоббистскую деятельность азербайджанской американской диаспоры были съезды азербайджанцев мира и различные международные форумы.

В третьей глава диссертации называется «Приоритетная роль лоббизма в концепции внешней политики США и Азербайджана». В ней исследуются этапы формирования приоритетов во внешней политики независимой Азербайджанской Республики и определяются факторы, влияющие на сам процесс формирования приоритетных направлений во внешней политики страны.

В заключении работы сформулированы вытекающие из приведенного исследования общие выводы и рекомендации.

**Kamandari-Mammedova A.A.**

## Lobbying activities of the Azerbaijani Diaspora in the USA

### SUMMARY

In the thesis, the processes of migration of Azerbaijanis to the US were investigated in a chronological and typological sequence, socio-economic, political factors that influenced the formation of lobbyism as a structural phenomenon were taken into account at each historical stage and a priority degree of lobbyism in foreign-policy of Azerbaijan-American relationships at modern stage. These areas have become the object of research.

The first chapter of the thesis is entitled as “Emigration of Azerbaijanis to the United States in the 20th and early 21st centuries”. Here, for the first time, the entire historical cycle of social, economic and cultural causes of the process of migration in general and the emigration of Azerbaijanis to the US was created. On the basis of numerous archival documents and research works, the process of emergence and formation of the Azerbaijani Diaspora in the USA in the early 1920s was investigated.

The second chapter of the thesis is called as “The research of the formation of lobbyism as a structural phenomenon in the context of US-Azerbaijan relations”. It investigates the socio-political activity of the Azerbaijani Diaspora in the process of forming of lobbyism as a structural phenomenon. Based on the comparison, it was proved that one of the effective means that had a positive impact on the lobbying activities of the Azerbaijani American Diaspora was the world congresses of Azerbaijanis and various international forums.

The third chapter of the dissertation is called “The priority role of lobbyism in the concept of foreign policies of the US and Azerbaijan.” It examines the stages of forming priorities in the foreign policy of the independent Azerbaijan Republic and identifies the factors that influence the process of forming of priority areas in the country's foreign policy. Taking these factors into account, obvious topical directions in the foreign-policy relations of Azerbaijan and the USA become clearer.

In the conclusion of the work, the general conclusions and recommendations resulting from the above study are formulated.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**ИНСТИТУТ ИСТОРИИ им. А.А. БАКЫХАНОВА**

*На правах рукописи*

**АЙГЮН АЛЛАХШУКУР кызы КАМАНДАРИ-МАММЕДОВА**

# «ЛОББИСТСКАЯ ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ в США»

**Специальность: 5503.02-Отечественная история**

## А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ-2017**